*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*12 (2) 2025*

*Derleme Makalesi | Review article*
*Geliş tarihi |Received:21.10.2024*
*Kabul tarihi |Accepted:29.03.2025*
*Yayın tarihi |Published:25.04.2025*

**Emin Məlikov**

*https://orcid.org/0000-0002-2082-079X*
*Associate professor, Lankaran State University, Department of History, Azerbaijan, eminmelikov79@gmail.com*

*Atıf Künyesi | Citation Info*

Məlikov, E. (2025). Azərbaycan Respublikasının Cənub-Şərq Bölgəsində Kommunal Təsərrüfatının Təşkili Tarixi (Mavi Qaz Təsərrüfatı Üzrə 2004-2018-ci İllər). *Akademik Tarih ve Düşünce Dergisi, 12* (2), 852-859.

# Azərbaycan Respublikasının Cənub-Şərq Bölgəsində Kommunal Təsərrüfatının Təşkili Tarixi (Mavi Qaz Təsərrüfatı Üzrə 2004-2018-ci İllər)*

***Xülasə***

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə regionların sosial-iqtisadi inkişafı sürətlə həyata keçirilir. Bu məqsədlə rayonlarda kommunal təsərrüfatı yenidən qurulmuşdur. Dövlət proqramlarına uyğun olaraq yeni layihələr həyata keçirilir. Həyata keçirilən islahatlar nəticəsində regionlarda əhalinin mənzil-məişət şəraiti yaxşılaşmış, kommunal təsərrüfat sahələri xeyli inkişaf etmişdir. Məqalədə Azərbaycan Respublikasının cənub-şərq bölgəsində mavi qaz təsərrüfatının təşkili tarixi tədqiq edilir. Dövlət Proqramlarının icrası ilə əlaqədar ölkədə qazlaşdırmanın yeni mərhələsinə başlanılıb. Respublikanın cənub-şərq bölgəsində yaşayış məntəqələrinin qazlaşdırılması istiqamətində genişmiqyaslı tikinti-quraşdırma və təmir-bərpa işləri aparılmış, mavi yanacaqla təmin olunmayan yaşayış massivləri qazlaşdırılmışdır. Qaz təsərrüfatının və paylama sisteminin dünya standartlarına uyğunlaşdırılmış, maddi-texniki bazası müasir sistemə uyğun quraşdırılmışdır. Ölkə başçısının həyata keçirdiyi sosial-iqtisadi layihələrin uğurlu nəticəsi olaraq rayon əhalisinin kommunal problemlərinin mühüm hissəsi öz həllini tapıb. Belə ki, 2005-2018-ci illər ərzində bölgəə 871 kilometrdən artıq qaz xətti çəkilmiş və ya təmir edilmiş, 8 rayon və şəhərdə 331 yaşayış məntəqəsi qazla təmin edilmişdir.*

***Açar sözlər:*** *Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı, Cəlilabad, Cənub-Şərq Bölgəsi*

*Bu makale yazarın "Azərbaycan Respublikasının Cənub-Şərq Bölgəsinin Sosial-İqtisadi və Mədəni İnkişafı (2003-2018-ci İllər)" adlı Avtoreferatı çalışmasından türetilmiştir.*

BY NC Creative Commons Licence

# The History of the Organisation of the Social Economy in the South-Eastern Region of the Republic of Azerbaijan (2004-2018 Blue Gas Economy)

***Abstract***

*Under the leadership of President of the Republic of Azerbaijan Ilham Aliyev, the socio-economic development of the regions is being carried out rapidly. For this purpose, social services have been reorganised in the regions. New projects are being implemented in accordance with state programmes. As a result of the reforms, housing and living conditions of the people in the regions have improved, the social economy has developed significantly. The article examines the history of the organisation of blue gas agriculture in the South-Eastern region of the Republic of Azerbaijan. With the implementation of the State Programmes, a new stage of gasification has begun in our country. While large-scale construction, installation, repair and restoration works were carried out in the south-eastern region of the republic with the aim of gasification of residential areas, residential areas that were not supplied with natural gas were also gasified. The gas industry and distribution system was brought in line with world standards, and the material and technical infrastructure was established in accordance with a modern system. As a successful result of the socio-economic projects implemented by the State Administration, a significant part of the social problems of the people of the region were solved. Thus, in 2005-2018, more than 871 kilometres of gas pipelines were laid or repaired in the region, natural gas was supplied to 331 settlements in 8 districts and cities.*

***Keywords:*** *Lankaran, Astara, Lerik, Masalli, Yardimli, Jalilabad, Southeast Region*

## Giriş

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə regionlarının sosial-iqtisadi cəhətdən inkişafı sürətlə həyata keçirilir. Bu məqsədlə rayonlarda kommunal təsərrüfat yenidən qurulur. Dövlət proqramlarına uyğun olaraq yeni layihələr həyata keçirilir. Həyata keçirilən islahatlar nəticəsində rayonlarda əhalinin mənzil şəraiti yaxşılaşdırılmış, kommunal təsərrüfat sahələri xeyli inkişaf etmişdir. Ölkədə həyata keçirilən regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarında əsas məqsəd davamlı və tarazlı regional inkişafa və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına nail olmaqdır. “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının (2004-20018-ci illər)” uğurlu icrası nəticəsində ölkədə mikroiqtisadi göstəricilərin səviyyəsində yüksək artım əldə edilmiş, sosial-iqtisadi inkişaf sahəsində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi əhalinin həyat səviyyəsinin yüksəlməsində mühüm rol oynamışdır.

## 1. Respublikasının cənub-şərq bölgəsində mavi qaz təsərrüfatının təşkili tarixi

2003-2004-cü illərdə bölgənin mavi qaz təsərrüfatının bərpa edilməsi məqsədilə ilkin işlər aparılmışdır. 2005-ci il sentyabrın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham

Əliyevin imzaladığı “Azərbaycan Respublikası regionlarının, o cümlədən Lənkəran şəhəri, Astara, Lerik, Masallı və Yardımlı rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında” Sərəncamla respublikanın cənub-şərq bölgəsinin mavi qazla təmin edilməsi prosesi sürətləndi. Sərəncama uyğun olaraq Lənkəran şəhərində əhalinin mavi qazla təmin etmək məqsədilə 117 km. yeni xəttin çəkilməsi nəzərdə tutulurdu. Görülən işlər nəticəsində 2007-ci il Lənkəran şəhərində 10169 abonent üçün 9171 qaz sayğacı quraşdırılmışdır. Lənkəran Qaz İstismar İdarəsinin hesabatında göstərilir ki, il ərzində istehlakçılara 1 milyon 88 min 414 manat dəyərində 22 milyon 548 min kubmetr təbii qaz verilmiş, ödəniş isə 492 min 093 manat olmuşdur. Bu da verilən təbii qazın 45,2 faizini təşkil edir. Lənkəran şəhəri ərazisində 30 min 664 p/m polietilen boru, 123 min 608 p/m dəmir boru, ümumilikdə 153 p/m, rayonun kəndlərində isə 155 min 184 p/m polietilen, 602 min 553 p/m dəmir boru, ümumilikdə 757,7 min p/m, toplam 1181 p/m yeni qaz xətti çəkilmişdir [1, 2007]. 2012-ci ildə Lənkəran rayonunda qaz çəkilişi işləri 78 briqadadan ibarət 4 tikinti təşkilatı tərəfindən həyata keçirilmişdir. Aparılan işlər nəticəsində 48 kəndə, cari ilin 9 ayında isə 33 kəndin qazlaşdırılması prosesi başa çatmışdır. Lənkəran şəhəri üzrə 98 faiz, rayon üzrə isə 85 faiz əhali təbii qazla təmin edilmişdir. 2014-cü il rayonun Sütəmurdov kəndində 100 p/m metal boru, 3758 ədəd sayğac quraşdırılaraq, abonentlərin sayı 3103 nəfər olmaqla 6 kənd yaşayış məntəqəsi də təbii qazla təmin edilmişdir (Lənkəran rayon icra hakiminin 2012-ci il üçün illik hesabatı). Yardımlı rayonunu təbii qazla təmin etmək məqsədilə Lerikin Ordaxıl kəndindən rayon mərkəzinədək 28 km. uzunluqda 219 mm-lik magistral qaz xətti çəkilmişdir. Magistral xətti 36 yol, 6 çay keçidindən, 12 km. sıldırım qayalardan, 10 km. sıx meşəni keçməklə inşa edilmişdir. Xəttin çəkilişinə 11,5 milyon manat dövlət vəsaiti sərf olunmuşdur. 2007-ci ilin ilk altı ayı ərzində 433 fərdi yaşayış evi qazla təmin edilmişdir. İl ərzində 824 fərdi yaşayış evinə təbii qaz xətti çəkilmişdir. Yardımlı rayonu üzrə 790 abonent PQ-4 tipli mətbəx qaz sobaları ilə pulsuz təmin edilmişdir. Rayonun Əsədabad və Ənvəgül kəndlərinin qazlaşdırılması prosesi başa çatmışdır. Yardımlı rayonunda uzunluğu 15274 m. olan qaz xətti çəkilmişdir ki, onun da 6704 metrlik hissəsi diametri 57 mm-lik borularla, 8570 metrlik hissəsi diametr 76 mm-lik borularla çəkilmişdir. “Azəriqaz” ASC-ti tərəfindən 2008-ci ilin sonunadək rayonun 12 kəndinin qazlaşdırılması üçün layihə-smeta sənədləri hazırlanmışdır. 2010-cu il ərzində 36 abonent üçün qaz xətti çəkilişi həyata keçirilmiş, ümumilikdə abonentlərin sayı 1019-a çatdırılmışdır. Şəhərin Daşkənd məhəlləsi magistral qaz xəttinə qoşulmuşdur.

2012-ci il Yardımlı Rayonu Qaz İstismar İdarəsinin hesabatında göstərilir ki, Yardımlı şəhərinin 68%, Bozayaran kəndinin 10%, Urakəran kəndinin 37%, Sırıq kəndinin 100%,

Ənvəgül kəndinin 100%, Qabaqdibli kəndinin 8%, Köryəli kəndinin 39% təbii qazla təmin olunması həyata keçirilmişdir. 2013-cü il ərzində Bilnə kəndində 48 abonent, Bozayaran kəndində 280 abonent, Qabaqdibi kəndində 184 abonent, Mişkireyn kəndində 54 abonent, Vəlixanlı kəndində 15 abonent, şəhərin Unənç küçəsində 97 abonent təbii qazla təmin edilmiş və rayon üzrə abonentlərin sayı 1895 nəfərə çatdırılmışdır. Rayonun 11 min 400 nəfər əhalisi olan 11 yaşayış məntəqəsinin Gavran, Ostayr, Dəlləkli, Çayüzü, Şəfəqli, Nisəqula, Osnağaran, Anza, Hamarkənd, Abasabad, Horavar kəndlərinin də qazlaşdırılması həyata keçirilmişdir (Yardımlı rayon icra hakiminin 2013-cü il üçün illik hesabatı). Cəlilabad rayonunun qaz təsərrüfatı daim diqqət mərkəzində saxlanılmış, 1209 m. istifadəyə yararsız qaz xətti yenisi ilə əvəz edilmiş, daha çox ehtiyac duyulan ərazilərdə 5 yeni qaz tənzimləyicisi quraşdırılmışdır. 2009-cu ildən başlayaraq Cəlilabad şəhərinin qaz təchizatını yaxşılaşdırmaq məqsədilə stansiyadan şəhərin mərkəzinə 10 km. uzunluqda yeni qaz xətti çəkilmiş, şəhərin Heydər Əliyev prospektindən keçən 219 mm-lik 4500 p/m yeraltı qaz kəməri yenisi ilə əvəz edilmişdir. Göytəpə-Kazımabad qaz kəməri çəkilərək, Kazımabad kəndinin 200 abonenti təbii qazla təmin edilmişdir. 2010-cu ildə rayonun Günəşli kəndində 65 km. Alar kəndində isə 90 km. müxtəlif diametrli polietilen borularla yeni qaz xətti çəkilmişdir.

II Dövlət Proqramına uyğun olaraq rayonun Təzəkənd, Zubanlı, Üçtəpə, Cəfərxanlı, Alqasımlı, Bədirli, Qarazəncir, Ocaqlı, Sabirabad kəndləri də təbii qazla təmin edilmişdir (Cəlilabad rayon icra hakiminin 2010-cu il üçün illik hesabatı). 2011-ci ilin dörd ayı ərzində rayon üzrə əhaliyə 8125638 $m^3$ qaz satılmış, dəyəri 634129,74 manat olan vəsaitin 78 faiz yığılmışdır. Şəhərin qaz təchizatını yaxşılaşdırmaq məqsədilə Azərbaycan küçəsində 1835 p/m, M.Hüseyn küçəsində 182 p/m, Qurtuluş küçəsində 293 p/m, M.Müşfiq küçəsində 589 p/m, M.Ə.Rəsulzadə küçəsində 875 p/m, Ü.Hacıbəyov küçəsində 589 p/m yeni qaz xətti çəkilmişdir. Şəhərin Heydər Əliyev prospekti ilə Mişarçay arasında əhalinin qaz təchizatının yaxşılaşdırılması məqsədilə 743 m. S.Vurğun küçəsindən Astanlı yolunun sonuna kimi uzunluğu 1505 m. olan polietilen boru ilə yeni qaz xətti çəkilmiş, xətt üzrə 11 ədəd siyirtmə, 1 ədəd qaz tənzimləyici dolab quraşdırılmışdır. 2015-ci ildə rayonun 28 kəndi tam qazlaşdırılmış, 10000 abonentə sayğac quraşdırılmışdır (Cəlilabad rayon icra hakiminin 2015-ci il üçün illik hesabatı). 2009-2013-cü illərdə Lənkəran rayonunun İstisu, Havzava, Veravul, Bürcəli, Lənkəran QPS-dən gələn rayonun Vilvan kəndinə gedən diametri 200 mm-lik orta təzyiqli qaz kəməri yenidən qurulmuş, Şürük-Gərmətük daşıyıcı qaz xətti istifadəyə verilmiş, Gərmətük, Osaküçə, Göyşaban, Girdəni, Vilvan, Kosalar, Hirkan, Parakənd, Xanbulan, Narbağı, Sağlaküçə, Kərgəlan, Darquba, Urqə, Şıxakəran, Balaşürük kəndlərinin qazlaşdırılması prosesi

başa çatdırılmışdır. Dövlət Proqramlarına uyğun həyata keçirilən tədbirlər nəticəsində əhalinin əsas problemi mavi yanacağa olan tələbatı tam ödənilmişdir.

Astara Qaz-Kompressor stansiyasının tikintisi respublikanın cənub-şərq bölgəsinin mavi qaz təsərrüfatının bərpasında əsas rol oynamışdır. Stansiyanın əsas funksiyası İran İslam Respublikasına ötürüləcək qazın təzyiqini 12 atmosferdən 55 atmosferə çatdırmaqdır. Müəssisənin gücü sutkada 3 milyon $m^3$ olacaqdır. Stansiyanın istifadəyə verilməsi ilə bölgənin qaz təminatı tam həll ediləcəkdir. Stansiyanın açılışında iştirak edən Prezident İlham Əliyev demişdir:

*"Belə həcmdə işləri qısa müddətdə və dünya standartlarına cavab verən yüksək səviyyədə yerinə yetirdiyinizə, Azərbaycan qaz şəbəkəsi üçün çox böyük əhəmiyyəti olan bu kompressor stansiyasını tikdiyinizə görə sizə çox minnətdaram. Bu stansiya vasitəsi ilə qaz yüksək təzyiqlə vurulacaqdır. İran Naxçıvan üçün qaz alacaqdır. Lakin bununla yanaşı, Azərbaycanın cənub bölgəsi də qazla təmin ediləcəkdir. Bizim buna ehtiyacımız var. Bilirəm ki, bu, Azərbaycanda çox uğurlu əməkdaşlıq sahəsində ilk təcrübə deyildir. Ona görə də təşkilatlarımız arasında və əlbəttə ki, ölkələrimiz arasında əməkdaşlığın daha da genişlənməsinə ümid bəsləyirəm. Bir sözlə, belə müştərək layihənin tez, keyfiyyətli başa çatmasına çox şadam"* (Astara Qaz-Kompressor Stansiyası ilə tanışlıq, 2005, s. 4).

Stansiyada tikinti işləri Ukraynanın Sümi Maşınqayırma Elmi-İstehsalat Birliyi tərəfindən həyata keçirilmişdir. 2007-ci ildə Astara rayonu ərazisində 100 p/m-dən çox qaz xətlərində bərpa işləri aparılmış, Məsçidməhəllə kəndində 51 ev, Supanbağ kəndində 5 ev, Astara şəhəri üzrə 76 evin qaz təchizatı bərpa edilmişdir. Astara şəhərində 7 ədəd, Ərçivan kəndində 3 ədəd, Məscidməhəllə kəndində 1 ədəd, Supanbağ kəndində 1 ədəd, Artuba kəndində 1 ədəd, rayon üzrə cəmi 13 ədəd QTŞ təmir edilərək istifadəyə verilmişdir. 78 ədəd qaz sayğacı əhali abunəçiləri üçün quraşdırılmış və rayon üzrə sayğacların sayı 5507-ə çatdırılmışdır (Astara rayonunun statistik göstəriciləri, 2007). Rayonun Kijəbə kəndinə gedən diametri 500 mm-lik orta təzyiqli qaz xəttinin yenidən qurulması ilə Zəngüləş, Suvar, Siyətük, Şüvi, Pensər, Kakalos, Şiyəkəran və Şahağacı kəndlərinin qazlaşdırılması prosesi sürətləndirilmişdir.

***Respublikanın cənub-şərq bölgəsi üzrə qazlaşdırılmış yaşayış məntəqələri:***
***Cədvəl: 1***

| **Rayonlar** | **2004-2008-ci illər** | **2009-2013-cü illər** | **2014-2018-ci illər** | **Cəmi** |
|---|---|---|---|---|
| **Astara** | 10 | 17 | 19 | 46 |

| | | | | |
|---|---|---|---|---|
| **Lerik** | 11 | 15 | 21 | 47 |
| **Lənkərn** | 22 | 23 | 29 | 74 |
| **Masallı** | 25 | 26 | 41 | 92 |
| **Cəlilabad** | 14 | 16 | 17 | 47 |
| **Yardımlı** | 4 | 9 | 12 | 25 |

Yuxarıdakı cədvəldən aydın olur ki, bölgənin qazlaşdırılması tam həyata keçirilməmiş, layihələrə uyğun qazlaşdırma prosesi davam etdirilir. Buna baxmayaraq bölgənin yaşayış məntəqələrinin 60 faizə qədərində qazlaşdırma həyata keçrilmişdir (bax. cədvəl: 1). Masallı rayonu üzrə əhalinin təbii qazla təchizatı işi daha sürətlə aparılmışdır."Azəriqaz" QSC tərəfindən rayonda 6860 qaz sayğacı quraşdırılmış, 16 yaşayış məntəqəsinə təbii qaz verilmişdir. 2007-ci ildə Şərəfə, Ağakişibəyli, Boradigah, Bədəlan yaşayış məntəqələrinə qaz çəkilişinin layihələri hazırlanmış, Təzəalvadı QPS-dən 156 mm-lik boru ilə Masallı şəhərinə əlavə qaz xətti çəkilmişdir. "Azəriqaz" QSC tərəfindən 2008-ci ilin I yarısı ərzində respublikanın cənub-şərq bölgəsində 321,3 min manat dəyərində 12654 p/m uzunluğunda qaz xətti çəkilmişdir (Regionların sosial-iqtisadi inkişafı (2004-2008-ci illər), 2008). 2010-cu ildə Masallı rayonu üzrə abonentlərin sayı 25267 nəfərə çatdırılmışdır. Rayonun Musaküçə, Gəyəçöl, Həsənli, Təkdam, Məmmədxanlı, Köçəkli, Xırmandalı, Ərəb, Hacıtəpə, Lürən, Pircana kəndlərində qazlaşdırma prosesi başa çatdırılaraq, 3986 abonent təbii qazla təmin edilmişdir. 2014-cü ildə rayonun Yeddioymaq, Qədirli, Xallıcala, Kolatan, Onçəqala, Hüseynhacılı kəndləri qazlaşdırılaraq rayon üzrə abonentlərin sayı 28940 nəfərə çatdırılmışdır. 2016-cı ildə rayon üzrə 103 yaşayış məntəqəsindən 93-ü qazla təmin edilmişdir ki, bu da əhalinin 95 faizinin təbii qazla təmin edilməsi deməkdir (Masallı rayon icra hakiminin 2016-cı il üçün illik hesabatı). Lerik rayon mərkəzində bir qaz paylayıcı stansiyanın tikintisinə başlanılmış, rayon üzrə 40 km-dən artıq müxtəlif diametrli qaz xətti çəkilmiş, 11 ədəd qaz tənzimləyici quraşdırılmışdır. Layihənin ümumi icrasına 11 milyon 500 min manat ayrılmış, lakin vəsaitin 9 milyon 180 min manatı xərclənmişdir. Stansiyanın açılışında iştirak edən Prezident İlham Əliyev demişdir:

*"Lerik rayonuna qazın çəkilişi göstərir ki, Azərbaycan dövləti hər şeyə qadirdir. Bizim əsas vəzifəmiz, əsas məqsədimiz ondan ibarətdir ki, Azərbaycanın hər bölgəsi inkişaf etsin. Hər bir bölgədə abadlıq-quruculuq işləri aparılsın, yollar çəkilsin, qaz xətləri çəkilsin, işıq çəkilsin*

*ki, insanlar daha da yaxşı yaşasın. Bu gün Azərbaycanın, demək olar ki, bütün bölgələrində çox sürətli inkişaf gedir. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı uğurla icra edilir"* (Azərbaycanın hər bir bölgəsinin hərtərəfli inkişafını təmin etmək əsas məqsəddir, 2005, s. 6).

Ölkə rəhbərinin həyata keçirdiyi sosial-iqtisadi layihələrin uğurlu nəticəsi olaraq bölgə əhalisinin kommunal problemlərinin mühüm hissəsi həll edilmişdir. Stansiyanın açılış mərasimində iştirak edən lerikli ağsaqqal Xanış Şahıyer demişdir: "Sovet dövründə boruları da gətirdilər, üç-dörd il işlədilər, ancaq qaz xətti çəkə bilmədilər. Sən leriklilərə söz verdin ki, yoldan sonra qaz xətti çəkdirəcəksən, rayona bundan sonra tez-tez gələcəksən. Bu gün rayonun hər yerində deyilir ki, İlham Əliyev yeganə insandır ki, dediyi sözə əməl edir". Lerikin Ordahal kəndinə də qaz xətti çəkilmişdir. Lerik şəhəri ilə yanaşı Cəngəmiran, Perzəküçə, Xəlfəküçə, Osnuğaküçə, Blaband, Lüləkəran, Pıran, Hamanmeşə, Anbu, Rvarud, Cayrud, Mondigah, Rəzqov, Mastail, Tanqəbin kəndləri təbii qazla təmin edilərək, 45 yaşayış məntəqəsi üzrə abonentlərin sayı 4152 nəfərə çatmışdır. 2011-ci ilin iyunun 18-də Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin rəhbəri R.Abdullayevin iştirakı ilə keçirilən tədbirdə Lerik rayonunun 6 kəndində mavi qaz verilmiş, 500-dən yuxarı abonentin qaz təchizatı tam təmin edilmişdir. 2010-2014-cü illər ərzində rayonun 38 yaşayış məntəqəsi mavi yanacaqla tam təmin edilmişdir. 2016-2017-ci illərdə Lerik rayonunun 48 yaşayış məntəqəsi tam qazlaşdırılmış, 4372 əhali və 57 qeyri-əhali abonent mavi qazla təmin olunmuşdur. Rayon Qaz İstismar Xidməti sahəsi tərəfindən 2017-ci ildə 247 min manat həcmində mavi qaz istehlak olunmuş və 4228 abonentə 5,5 milyon $m^3$ mavi yanacaq satılmışdır (Lerik rayon icra hakiminin 2017-ci il üçün illik hesabatı). 2016-cı ildə Astara rayonu üzrə 716 abonentin mavi qazla təmin edilməsi başa çatdırılmışdır. Rayonun Şağlazüzə kəndində 233 abonent, Tüləgivan kəndində 148 abonent qazla təchiz edilmiş, həmin kəndlərdə 80 ədəd siyirtmə, 5300 p/m daşıyıcı, 40500 p/m paylayıcı xətlər çəkilmiş, 381 sayğac və tənzimləyici quraşdırılmışdır. Astara şəhərinin qaz xəttinin birpilləli sistemə keçməsi ilə əlaqədar olaraq 191 ədəd sayğac quraşdırılmışdır. Kijəbə qəsəbəsinin qaz təchizatını yaxşılaşdırmaq məqsədilə D-57 mm-lik, 876 p/m yeni qaz xətti çəkilmiş və magistral polietilen qaz xəttinə qoşulmuşdur. 2016-cı ildə Astara rayonu üzrə abunəçilərin sayı 16606 nəfərə çatdırılmış, il ərzində onlara 293503,82 $m^3$ qaz satılmış, yığım isə 2749737 manat olmuşdur. Rayon ərazisində 138 ədəd qaz tənzimləyici dolab təmir olunmuş, 8 ədədi isə yeni, 10 ədəd isə siyirtmə quraşdırılmışdır. Rayonun 1 şəhər, 2 qəsəbə, 38 kəndi əhatə edən 16937 nəfər abunəçisi vardır (Regional Lənkəran Qaz İstismar İdarəsinin Astara Xidmət sahəsinin 2016-cı il üçün gördüyü işlər barədə arayışı). 2018-ci ildə respublikasının cənub-şərq bölgəsində qazlaşdırılmış yaşayış məntəqələrinin sayı xeyli artmışdır (bax. cədvəl: 1).

**Nəticə**

Dövlət Proqramlarının icrası ilə bağlı ölkədə qazlaşmanın yeni mərhələsi başlanılmışdır. Respublikanın cənub-şərq bölgəsində yaşayış məntəqələrinin qazlaşdırılması istiqamətində genişmiqyaslı tikinti-quraşdırma və təmir-bərpa işləri aparılmış, mavi yanacaqla təchiz olunmayan yaşayış massivləri qazlaşdırılmışdır. Qaz təsərrüfatının, paylayıcı sistemin dünya standartlarına uyğunlaşdırılması və maddi-texniki bazası yaxşılaşdırılmışdır. Belə ki, 2005-2018-cü illər ərzində bölgədə 871 km-dən çox qaz xətti çəkilmiş və ya təmir edilmiş, 8 rayon və şəhər üzrə 331 yaşayış məntəqəsi qazlaşdırılmışdır.

**Ədəbiyyat**

Astara Qaz-Kompressor Stansiyası ilə tanışlıq. (2005, sentyabr 9). *Xalq qəzeti, 4.*

*Astara rayonunun statistik göstəriciləri.* (2007). Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.

Azərbaycanın hər bir bölgəsinin hərtərəfli inkişafını təmin etmək əsas məqsəddir. (2005, oktyabr 26). *Xalq qəzeti, 6.*

*Cəlilabad rayon icra hakiminin 2010-cu il üçün illik hesabatı.* Cəlilabad rayon İcra Hakimiyyətinin cari arxivi, vərəq- 12.

*Cəlilabad rayon icra hakiminin 2015-ci il üçün illik hesabatı.* Cəlilabad rayon İcra Hakimiyyətinin cari arxivi, vərəq – 12.

*Lerik rayon icra hakiminin 2017-ci il üçün illik hesabatı.* Lerik rayon İcra Hakimiyyətinin cari arxivi, vərəq -1-9.

*Lənkəran rayon icra hakiminin 2012-ci il üçün illik hesabatı.* Lənkəran rayon İcra Hakimiyyətinin cari arxivi, vərəq - 1-10.

Lənkəran şəhər Qaz İstismar İdarəsinin 2007-ci il üçün gördüyü işlər barədə arayışı. Lənkəran rayon İcra Hakimiyyətinin cari arxivi, vərəq -1.

*Masallı rayon icra hakiminin 2016-cı il üçün illik hesabatı.* Masallı rayon İcra Hakimiyyətinin cari arxivi, vərəq – 1-11.

*Regional Lənkəran Qaz İstismar İdarəsinin Astara Xidmət sahəsinin 2016-cı il üçün gördüyü işlər barədə arayışı.* Astara rayon İcra Hakimiyyətinin cari arxivi, vərəq - 1.

Regionların sosial-iqtisadi inkişafı (2004-2008-ci illər). Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. *Statistik məcmuə.* iyul-2008, 633.

*Yardımlı rayon icra hakiminin 2013-cü il üçün illik hesabatı.* Yardımlı rayon İcra Hakimiyyətinin cari arxivi, vərəq – 1-9.